2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 54 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 5 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (bundan sonra – Milli Məclis) növbədənkənar seçkilərdə müşahidəçi olmuş Solmaz Özgüvənin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) daxil olmuş, səsvermə günü 23 saylı Nəsimi-Səbail seçki dairəsinin 30 saylı seçki məntəqəsində qanun pozuntularının baş verməsini iddia etdiyi 4 sentyabr 2024-cü il tarixli 54 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü kimi tərəfimdən nəzərdən keçirilərkən onun aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən edilmişdir.

Seçki Məcəlləsinin tələbinə görə iddia olunan qanun pozuntuları ilə bağlı ilkin olaraq dairə seçki komissiyasına müraciət edilməlidir, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) isə Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə müşahidəçi olmuş Solmaz Özgüvənin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 54 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 23 saylı Nəsimi-Səbail seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü**

**Bəxşeyiş Əsgərov**